Ədəbiyyat qəzeti

6 9 yanvar 2021-ci il



**Abuzər BAĞIROV**

*yazıçı, filologiya elmləri doktoru,*
*MQİMO Universitetinin professoru,*
*Rusiya Elmlər Akademiyasının A.M.Qorki adına*
*Dünya Ədəbiyyatı İnstitutunun aparıcı elmi işçisi,*
*Azərbaycan Yazıçılar Birliyi Moskva bölməsinin sədri*

***Hörmətli və dəyərli Baş redaktor!***
***İstəkli dostum və qardaşım Azər Turan!***
***Doğma "Ədəbiyyat qəzeti"mizin əziz və sevimli oxucuları!***

***Moskvada yaşayan azərbaycanlı şairlər son otuz ildə başı bəlalı gözəl Qarabağımızın dərd-sərindən, qəm-kədərindən, acınacaqlı halından ürək yandıran yüzlərlə həsrət şeirləri yazmaqdan az qalmışdılar ki, özləri də qəm heykəllərinə çevrilsinlər və oxucularını şivən qoparıb, zarın-zarın ağlamağa düçar etsinlər. Ulu Tanrıya min-min şükürlər olsun ki, ulu öndərimizin layiqli varisi, millətimizin qeyrətli lideri, dünya çaplı siyasətçi, mahir diplomat, şanlı ordumuzun qəhrəman sərkərdəsi, Ali Baş Komandanımız İlham Heydər oğlu Əliyevin misilsiz iradəsi, igidliyi sayəsində, qardaş Türkiyəmizin və dost Pakistanın sıcaq dəstəyi, nəhəng qonşumuz Rusiyanın anlaşıqlı davranışı nəticəsində Azərbaycanımızda, illah da Qarabağımızda, min bir fitnə-fəsad törətmiş erməni faşizminin qaxac qafasına çaxılan dəmir yumruq özünün möhtəşəm bəhrəsini ortaya qoydu - torpaqlarımız mənfur düşmənlərin tapdağından qurtuldu. Vətən müharibəsində qazandığımız tarixi Zəfər axır ki, moskvalı şairlərimizin də yaralı ürəklərinə məlhəm çəkdi, nəhayət, onları da nikbin ruhda köklədi. Elə burdaca, böyük sevinclə sözü Moskvada yaşayan altı şair həmkarıma verir, onlara ürəyimin ən dərin guşəsindən pöhrələnən alqışımı-qarğışımı çatdırıram: Uca Tanrım kədərli şeir mövzularınızı biryolluq alsın əlinizdən, bundan sonra vay-nəsvə, ağlaşma şeirləri yazsanız, qələmləriniz sınsın! Buyurun, meydan sizindir, əzizlərim!***

***Dərin ehtiramlarla...***